*Yekun qiymətləndirmə testi*

**1.** Təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.
A) *Qiymətləndirmə standartı*
B) *Təlim strategiyaları*
C) *Məzmun xətti*
D) *Məzmun standartı*
E) *Alt-standart*

**2.** Ənənəvi təhsilə daxil ***deyil :***
A) Fənyönümlüdür
B) Müəllimyönümlüdür
C) Təklifyönümlüdür
D) Bilkyönümlüdür
E) Nəticəyönümlüdür

**3.** Aşağıdakılar daxildir :
- *Fənn üzrə təlimin təşkilinə verilən əsas tələblərin təsviri*
- *Forma və üsulların təkmilləşdirilməsi barədə tövsiyələr*
- *Müəllimin təlim fəaliyyəti-nin planlaşdırılmasına dair nümunələr*

A) Fənnin məzmununa
B) Təlim strategiyalarına
C) Qiymətləndirməyə
D) Kompetensiyaya
E) Ənənəvi təhsilə

**4.** Sxemdə sıra necə ***pozulmuşdur***?




A) Təlimin nəticəsi ilə Məzmun xəttinin yeri dəyişməlidir
B) Məzmun xətti ilk sırada olmalıdır
C) Əsas standartlar məzmun xəttindən əvvəldə olmalıdır
D) Təlim nəticəsi sonuncu sırada olmalıdır
E) Sırada pozuntu olmamışdır

**5.** Azərbaycan Respublikasının təhsil qanunu əsasında təhsil pilləsini tamamlayın :




A) Əsas orta B) İlk peşə
C) Ali ibtidai D) Gimnaziya E) Aspirantura

**6.** Əsas standartlara uyğun olaraq alt-standartları müəyyən edin :
I. Azərbaycan ərazisini təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.
II. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.
III. Tarixi şəxiyyətləri dövr baxımından qiymətləndirir.
*a) İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.*
*b) Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.*
*c) Milli-mənəvi dəyərləri fərqləndirir.*

**7.** Fəal təlimin xüsusiyyətlərinə daxil ***deyil*** :
A) dərsin əvvəlində problemin qoyulması və dərsin gedişinin problemin həllinə yönəldilməsi
B) yeni biliklərin müstəqil kəşf edilməsi
C) qrup işindən geniş istifadə olunması
D) hazır halda əldə edilən biliklərin möhkəmləndirilməsi yolu ilə mənimsənməsi
E) biliklərin yaradıcı tətbiqi,müxtəlif tipli tapşırıqlardan, bilik mənbələrindən və iş vərəqlərindən istifadə edilməsi

**8.** ***Yanlış*** variantı müəyyən edin :

A) *Alt-standartın fəaliyyət komponenti təlimin strategiyalarını müəyyən etməyə kömək edir*
B) *Alt-standartın bilik komponenti mvzunu müəyyən etməyə kömək edir*
C) Deklarativ bilik *növü hər hansı bir anlayışın tərkib hissələrinin dərk edilməsini əhatə edir*
D) Kontekstual bilik *hər hansı prosesdə əldə edilən yeni informasiya və ya müəyyən informasiyalara tətbiq edildikdə yeni məna alan proseslər kimi dəyərləndirməsidir*
E) Prosedural bilik *məlumat xarakterli biliklərdir*

**9.** Hansı cavab fəal təlimin motivasiya mərhələsinin hissələrinin düzgün ardıcıllığını əks etdirir?

A) problemi qoymaq üçün sual və ya tapşırıq verilir, yönəldici suallar təklif olunur, tədqiqat sualı çıxarılır, fərziyyələr irəli sürülür
B) fərziyyələr irəli sürülür, problemi qoymaq üçün sual və ya tapşırıq verilir, tədqiqat sualı çıxarılır, yönəldici suallar təklif olunur
C) yönəldici suallar təklif olunur, tədqiqat sualı çıxarılır, problemi qoymaq üçün sual və ya tapşırıq verilir, fərziyyələr irəli sürülür
D) tədqiqat sualı müəyyən edilir, fərziyyələr irəli sürülür , yönəldici suallar təklif olunur
E) problemi qoymaq üçün sual və ya tapşırıq verilir, fərziyyələr irəli sürülür, yönəldici suallar təklif olunur, tədqiqat sualı çıxarılır

**10.** Fəal dərsin quruluşunu düzgün ardıcıllıqla düzün.

*1) Tədqiqatın aparılması*
*2) Motivasiya*
*3) Məlumatın müzakirəsi və təşkili*
*4) Nəticələrin çıxarılması*
*5) Qiymətləndirmə və ya refleksiya*
*6) Produktiv (yaradıcı) tətbiqetmə*
*7) Məlumatın mübadiləsi*

A) 1,2,3,5,6,4,7 B) 2,1,7,3,4,6,5
C) 2,1,3,5,6,7,4 D) 2,3,1,5,4,7,6
E) 1,2,3,4,5,6,7

**11.** Sxemi doldurun. (rəqəmləri müvafiq xanalara qeyd edin)

| ***SƏNƏDİN ADI*** / *KOMPONENT* | **MİLLİ KURİKULUM** | **FƏNN KURİKULUMU** | **ƏNƏNƏVİ TƏDRİS PROQRAMLARI** |
|---|---|---|---|
| Məzmun | a | b | c |
| Struktur | d | e | f |

1) Ümumi təhsil nəticələri
2) Həftəlik dərs saatlarının miqdarı
3) Təlim stategiyaları
4) Bilik və bacarıq siyahısı
5) Proqramın bölmələri üzrə saatların miqdarı
6) Bilik və fəaliyyət komponenti

**12.** Fəaliyyətin idraki növünə aid olan bacarıqları müəyyən edin :

1. *quraşdırmaq*
2. *rəqs etmək*
3. *tanımaq*
4. *nümunə göstərmək*
5. *rəsm çəkmək*

A) 1,2 B) 3,4 C) 4,5 D) 1,5 E) 2,3

**13.** Kurikulum anlayışlarından birinin tərifi ***yanlış*** verilib:

A) *Məzmun standartı* - Təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.
B) *Ümumi təlim nəticələri* - Mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.
C) *Kompetensiyalar* - Hər hansı bir fəaliyyəti həyata keçirmək üçün vacib olan və praktikada səmərəli tətbiq edilən biliklər + bacarıqlar + vərdişlər + dəyərlər və s.
D) *Məzmun xətti* - Fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunmuş məzmunun zəruri hissəsidir.
E) *Əsas standart* - Təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur

**14.** *Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür.*
**Sizcə fəal dərsin hansı üsulundan söhbət gedir ?**
A) Karusel
B) Ziqzaq
C) Klaster
D) Akvarium
E) Auksiyon

**15.** Oxşarlığı müəyyən edin.




A) Motivasiya
B) Tədqiqatın aparılması
C) Produktiv (yaradıcı) tətbiq etmə
D) Qiymətləndirmə
E) Məlumat mübadiləsi

**16.** Təfəkkürün inkişaf etməsini göstərən ifadələri müəyyən edin və sxemə uyğun olaraq sıralayın.




a) Əhəmiyyətini, rolunu qiymətləndir.
b) Oxşarlıqları və fərqləri tap
c) Proqnoz ver, müqayisə et və analoqu tap.
A) 1a,2b,3c B) 1b,2a, 3c C) 1c,2b,3a
D) 1b, 2c,3a E) 1c, 2a,3b

**17.** Perspektiv planlaşdırmaya daxil ***deyil*** :
A) Tədris vahidi
B) Qiymətləndirmə
C) Standartlar
D) Resurslar
E) Motivasiya

**18.** Ənənəvi və müasir qiymətləndirmələrin müqayisələrini sxemdə yerləşdirin.




1. Cari qiymətləndirmə formalizmə xarakteri daşıyır. Müəllimin subyektiv rəyinə əsaslanır
2. Tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilir
3. Şagirdin nailiyyəti (qazanılan dəyərər) qiymət-ləndirilir, inkişafı sistemli şəklidə izlənilir.
4. Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlldilir və onu idarə edən vacib amil kimi meydana çıxır.
5. Əsasən bilik səviyyəsi qiymətləndirilir

**19.** İnternetdən lazım olan resursun axtarışı üçün istifadə edəcəyiniz ardıcıllığı müəyyən edin.
1. Müxtəlif saytların materialları ilə tanış olmaq
2. Brauzerə daxil olmaq
3. Resursun adini yazmaq
4. Google.az saytini qeyd etmək

A) 1,2,3,4 B) 2,4,3,1
C) 3,1,2,4 D) 2,1,4,3 E) 4,2,3,1

**20.** Fəal təlimi xarakterizə edən 3 xüsusiyyəti göstərin.
1) Təlimin subyekt-subyekt xarakteri daşıması
2) Bilik mənbələri müxtəlifdir
3) Monoloji təlim
4) Biliklərin yaradıcı tətbiqi
5) Müəllim əsas bilik mənbəyidir

A) 1,2,4 B) 2,3,4 C) 1,3,5 D) 2,4,5 E) 3,4,5

**21.** Boşluğu doldurun.

- *formativ qiymətləndirmə zamanı müəllimin məqsədi şagirdin xronoloji məsələ həll etmək bacarığını yoxlamaqdırsa onun istifadə edəcəyi üsul ..........................., qiymətləndirmə vasitəsi isə ...............................*

A) *Üsul* – tapşırıqvermə, *Vasitə* - çalışmalar
B) *Üsul* – qeydiyyat vərəqləri, *Vasitə* - nəqletmə
C) *Üsul* – hesablamalar, *Vasitə* - kompüterdən istifadə
D) *Üsul* – testlər, *Vasitə* - tapşırıqvermə
E) *Üsul* – nəqletmə, *Vasitə* - tapşırıqlar

**22.** Gündəlik planlaşdırmanın mərhələlərinə daxil olanları ardıcıllıqla sıralayın:

1. İş üsulları
2. İş formaları
3. Resurslar
4. Standart
5. Müzakirə

A) 4,2,1,3,5 B) 5,2,1,3,4
C) 1,4,2,3,5 D) 3,4,5,2,1 E) 2,1,4,5,3

**23.** Blum taksanomiyasının mərhələlərinin ardıcıllığını müəyyən edin.

1. Təhlil
2. Bilik
3. Sintez
4. Tətbiq
5. Qavrama
6. Qiymətləndirmə

A) 4,5,2,3,1,6 B) 5,2,1,4,3,6
C) 5,1,3,6,2,4 D) 2,6,3,1,4,5
E) 2,5,4,1,3,6

**24.** Biri kompetensiyaya daxil ***deyil*** :




A) 1 B) 2 C) 3 D) 4 E) 5

**25.** *Məzmun xətti :*

A) fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunmuş məzmunun zəruri hissəsidir.
B) ümumi təhsil pillələrinin və fənlər üzrə ümumi təlim nəticələrini əks etdirir, məzmun standartların əsasında qurulur.
C) kurikulumunda siniflər üzrə fənnin məzmunu (fənnin məqsədləri, məzmun xətti, standartlar, alt standartlar), təlim strategiyaları, qiymətləndirmə standartları, növləri, üsulları və vasitələri əks etdirir
D) fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunmuş standart və alt-standartlar.
E) təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir

**26.** *S*ummativ qiymətləndirmənin nəticələri harada qeyd edilir?

A) Sinif jurnalında
B) Şagirdin gündəliyində
C) Şagirdin iş dəftərində
D) Valideyn üçün məlumat vərəqində
E) Müəllimin şəxsi qeyd dəftərində

**27.** Aşağıdakılardan hansı iş forması ***deyil***?

A) cütlərlə B) fərdi C) müzakirə
D) kollektiv E) qruplarla

**28.** Fəaliyyətin növlərinə daxil ***deyil*** :

A) idraki B) emosional
C) psixomotor D) koqnitiv E) konteksual

**29.** Şəkillərə uyğun olaraq məzmun xətlərinin adlarını müvafiq olaraq sxemə yazın.



**30.** Məzmun standartı neçə hissədən ibarətdir?

A) 1 B) 2 C) 3 D) 4 E) 5